**Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu bütün dünyanın diqqət mərkəzindədir. Hücum nəticəsində səfirliyin təhlükəsizlik xidmətinin rəhbərinin şəhid edilməsi, iki əməkdaşın isə yaralanması faktı Azərbaycanda ciddi qəzəb və qınağa səbəb olub.**

İranın asayiş əməkdaşlarının terrorçunun zərərsizləşdirilməsi istiqamətində heç bir addım atmaması, sadəcə olaraq, tamaşaçı mövqeyində dayanması məlum terror aktının rəsmi Tehran tərəfindən planlaşdırıldığı ehtimalını artırmaqdadır. Əslində, sözügedən terror aktı ilə bağlı İrana yönəlik narazılığın başlıca səbəbi də məhz bununla bağlıdır. Terror aktının siyasi dairələr tərəfindən təşkili ehtimalı İranın anti-Azərbaycan siyasətinin açıq terror müstəvisinə keçdiyini göstərir. Lakin hadisələrin gedişatı göstərir ki, əslində, Azərbaycan dövlətinə yönəlik terror aktı təkcə səfirliyə hücumla yekunlaşmayıb və sonrakı mərhələdə də zəncirvari şəkildə davam etdirilib. Terrordan sonrakı terrorun necə, hansı şəkildə baş verdiyini anlamaq üçün bəzi faktlara nəzər salmaq kifayətdir.

Bu faktlardan biri hadisədən dərhal sonra terrorçunun İran televiziyaları qarşısına çıxarılması, onun ictimaiyyətə, az qala, qəhrəman kimi təqdim edilməsidir.

Əvvəlcədən planlaşdırdığı ssenariyə uyğun olaraq, terrorçunu televiziya qarşısına çıxaran rəsmi Tehran, ona törətdiyi qanlı əmələ haqq qazandırmağa, baş verənlərə görə Azərbaycan səfirliyini ittiham etməyə imkan verir. İran rejimi bununla hadisələrin mahiyyətini ictimaiyyətə fərqli şəkildə təqdim etməyə çalışır, qanlı

Polis rəisinin terrorçunun səfirliyə iki azyaşlı uşaqla gəlməsi ilə bağlı dediklərinə gəlincə, bunun özü də rəsmi Tehranın riyakarlığından xəbər verir. Birincisi, videogörüntülərdən də məlum olduğu kimi, uşaqların heç biri səfirlik ərazisinə daxil olmur, binanın qarşısındakı avtomobildə gözləyir. İkincisi, uşaqların terrorçu ilə eyni avtomobilə əyləşdirilməsi də qabaqcadan planlaşdırılan və terror aktına məişət zəminində baş verən cinayət donu geyindirməyə xidmət edən bir addım olub. Terror aktının təşkilatçıları bununla belə bir fikir formalaşdırmağa çalışıblar ki, heç bir terrorçu terror aktı törədəcəyi yerə öz övladları ilə gəlməz, onları təhlükəyə atmaz. Əgər gəlibsə, deməli bu terror aktı öncədən planlaşdırılan, siyasi məqsədlərə xidmət edən akt olmayıb və daha çox “ani qəzəbdən” qaynaqlanıb.

Tehranın polis rəisinin hadisənin şəxsi problemlərdən qaynaqlanması ilə bağlı açıqlaması ölkəmizə qarşı həyata keçirilən terror aktının üçüncü mərhələsini təşkil edir. Bu açıqlamada məqsəd hadisələrin miqyas və önəmini kiçiltmək, rəsmi Tehranı hücumla bağlı bütün şübhə və ittihamlardan qorumaqdır.

Həmçinin, terrorçunun Azərbaycan səfirliyi önünə uşaqlarla birlikdə göndərilməsi faktı, İra-

# Terrordan sonrakı terror...



## *Və ya İranın siyasi əxlaq problemi*

cinayətin siyasi məqsədli terror aktı deyil, adi bir ailə-məişət hadisəsi olması ilə bağlı yanlış rəy formalaşdırmağa cəhd edir. Terrorçudan qəhrəman düzəldən, onu milyonların qarşısında aydan arı, sudan duru biri kimi çıxarmağa çalışan İranın bu addımı rəsmi Tehranın elementar siyasi əxlaqdan məhrum olduğunu göstərir.

Hadisədən dərhal sonra qatilin qəhrəman obrazında efirlərə çıxarılması faktı, səfirliyə edilən terror aktından sonra İranın Azərbaycan dövlətinə qarşı siyasi-mənəvi müstəvidə həyata keçirilən ikinci terror aktı kimi qiymətləndirilə bilər. Bu fakt onu deməyə əsas verir ki, İran baş verən terror aktına görə nəinki özünü müqəssir bilmir, əksinə, baş verən cinayətin zəruratdən irəli gəldiyini, terrorçunun belə bir cinayət törətmək üçün mənəvi haqqa sahib olduğunu təlqin etməyə çalışır. Başqa sözlə desək, İran dövləti fiziki terror aktını mənəvi müstəvidə həyasızcasına davam etdirir.

Səfirliyə edilən qanlı hücum əməliyyatından sonra ölkəmizə qarşı həyata keçirilən növbəti terror aktı Tehranın polis rəisi Hüseyn Rəhiminin verdiyi açıqlama oldu. Terrorçunun səfirliyə “iki azyaşlı uşağı ilə birlikdə” daxil olduğunu bildirən polis rəisi, hadisənin şəxsi problemdən qaynaqlandığını vurğuladı. Halbuki, terror aktı ilə Tehranın polis rəisinin məlum bəyanatı arasındakı qısa zaman kəsimi terror hadisəsi ilə bağlı hətta ilkin araşdırmanın aparılması üçün yetərli deyildi. Belə olan halda polis rəisinin terror aktının ailə-məişət zəminindən qaynaqlandığı ilə bağlı qənaətə necə, hansı faktlar əsasında gəldiyi sual doğurur. Bu fakt bir daha onu göstərir ki, terror aktı İrandakı siyasi dairələr tərəfindən öncədən planlaşdırılan bir hadisə olub. Hadisədən sonra kimin hansı açıqlama verəcəyi, hansı addımın hansı ardıcıllıqla atılacağı qabaqcadan müəyyən edilib və Tehranın polis rəisi də sözügedən ssenari əsasında üzərinə düşən missiyanı icra edib.

nın azyaşlılardan belə terror aləti kimi istifadə etdiyini göstərir. Məhz bu amil Azərbaycan tərəfindən beynəlxalq ictimaiyyətin və təşkilatların diqqətinə çatdırılmalı, İranın uşaq hüquqları üzərindən siyasi alver həyata keçirdiyi ifşa olunmalıdır.

Azərbaycan səfirliyinə hücumdan sonra Tehranın mənəvi-psixoloji baxımdan ölkəmizə qarşı həyata keçirdiyi terrorun dördüncü mərhələsi İranın hələ də ona yönəlik ittihamları qəbul etməməsi, hadisəyə görə üzr istəməməsidir. Bu fakt onu göstərir ki, İran baş verənlərə görə özünü müqəssir saymır və terror aktına görə cavabdehlik daşımadığını hesab edir. Halbuki, hadisənin hansı zəmində baş verməsindən, nədən qaynaqlanmasından asılı olmayaraq, baş verənlərə görə yeganə məsuliyyət İran dövlətinin üzərinə düşür. Buna görə də İran dövləti baş verənlərə görə Azərbaycan tərəfindən üzr istəməli, öz təəssüf və peşmanlığını bildirməlidir. Ancaq İranın davranışlarından nəinki peşmanlıq hiss edilmir, Tehran adi bir üzr istəməyə belə lüzum görmür. Terroru qəhrəmanlıq, üzrü qəbahət hesab edən İranın bu davranışı onun siyasi-diplomatik əxlaqdan məhrum olduğunu, ölkəmizə qarşı mənəvi terroru davam etdirdiyini göstərir. Lakin İran unutmamalıdır ki, Azərbaycan dövləti, Prezidenti terrora, onun hər cür təzahür formasına qarşıdır və buna qarşı barışmaz mövqeyini dəfələrlə bəyan edib. 44 günlük Vətən müharibəsində dövlətimizin erməni terrorizminə tutduğu divan da rəsmi Bakının bu məsələdə heç bir güzəşt tanımadığını göstərir. Bu isə o deməkdir ki, Azərbaycana qarşı açıq-gizli formada terror siyasəti yürüdən İran da, gec-tez öz əməllərinə görə cavab verməli, hesab ödəmək məcburiyyəti qarşısında qalacaq. Və o gün yetişəndə, İranın sadəcə üzr istəməsi Azərbaycana qarşı törətdiyi cinayətləri bağışlamaq üçün kifayət etməyəcək.

**Seymur ƏLİYEV**